# Milli Prioritetlərin hədəfi ölkəmizdə yüksək sosial rifah cəmiyyətinin yaradılmasıdır



***"Bu gün Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da yüksəldilməsi məqsədilə sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində davamlı, məqsədyönlü və səmərəli addımlar atır. Son illər əldə olunmuş siyasi-mənəvi və sosial-iqtisadi nailiyyətlər bundan sonra Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır". Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in sosial-mənəvi istiqamətləri barədə redakisiyamıza açıqlamasının davamında bildirdi:***

– Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, sahib olduğumuz potensial və gerçək imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Dövlət başçısının müvafiq sərəncamı ilə yaxın günlərdə həyata vəsiqə almış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edilmiş müddəalar qarşıdakı 10 ildə ölkəmizdə daha yüksək iqtisadi göstəricilərin əldə olunmasına, xalqın həyat səviyyəsinin xeyli yüksəldilməsinə zəmin yaradır.

İlk növbədə, qeyd etmək lazımdır ki, Vətən müharibəsində əldə olunmuş tarixi qələbə nəticəsində Cənubi Qafqazda yaranmış yeni siyasi reallıqlar regionda həm də yeni iqtisadi mənzərə formalaşdırıb. 30 ildən artıq müddət ərzində davam edən münaqişənin effektiv həlli regionun təhlükəsizliyini və kommersiya cəlbediciliyini təmin edən strateji göstəricidir. Torpaqlarımızın işğaldan azad olunması ölkəmiz üçün həm də əlavə iqtisadi imkanlar açmışdır. Vaxtilə ölkə iqtisadiyyatında önəmli çəkisi olmuş bu regionun gələcək tərəqqi üçün böyük iqtisadi potensialı var. Azərbaycan, sözsüz ki, bu potensialdan yararlanacaq.

Qarabağın işğaldan azad edilmiş ərazilərinin ölkənin ümumi iqtisadiyyatına qatılması, yeni yaradılan və bərpa edilən beynəlxalq və regional nəqliyyat dəhlizlərinin imkanları Azərbaycanın inkişafına böyük təkan verəcək. Sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu və statusunu daha da möhkəmləndirəcək.

**AHİK sədri daha sonra vurğuladı ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müəyyən edilmiş Milli Prioritetlər növbəti onillikdə iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılmasını təmin etmək baxımından qarşıdakı 10 ildə tamamilə yeni imkanlara meydan açır:**

– Şübhəsiz, bu gün Azərbaycan iqtisadiyyatının inkişaf sürəti və dinamikası indiyədək dünyanın heç bir ölkəsində müşahidə olunmayıb. Lakin yeni təsdiq edilmiş proqram sənədində müəyyənləşdirilən 5 milli istiqamət bu inkişafı artıq tamamilə yeni, keyfiyyətcə daha yüksək bir mərhələyə çıxaracaq. Dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyat yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmasını, bu əsasda yüksək gəlirli iş yerlərinin yaradılmasını, insanların həyat səviyyəsinin ilbəil yaxşılaşmasını nəzərdə tutur. Bu prioritet istiqamətlərin reallaşdırılması qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun və iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasını təmin edəcək.

**Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət –** bu prioritetin reallaşması ilə ümumi inkişafdan hər bir vətəndaş bəhrələnəcək, o cümlədən əməkhaqlarının layiqli səviyyəsi təmin ediləcək, ölkədə yüksək və ədalətli sosial təminata, yoxsulluğun və işsizliyin səviyyəsinin minimuma endirilməsinə nail olunacaq. Eyni zamanda, bu prioritet paytaxt və regionların tarazlı inkişafını, bu məqsədlə regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resursların tamamilə iqtisadi dövriyyəyə cəlb edilməsini nəzərdə tutur.

**Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı–** bu prioritetin isə əsas məqsədi gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün ölkəmizin yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas amillər kimi diqqət mərkəzinə çəkilir. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təbii ki, ölkənin ərazi bütövlüyünün təmin olunması ilə 30 il öz doğma torpaqlarından köçkün düşən insanların Vətənə, dədə-baba yurdlarına qayıdışının təmin olunması kimi son dərəcə vacib bir prosesi nəzərdə tutur.

Bu prioritet vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. Bunun üçün isə, Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır.

**Nəhayət, Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi** – bu prioritet ekoloji təmiz texnologiyaların tətbiqinə, təmiz enerji mənbələrindən istifadəyə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası işlərinə əhəmiyyətli yer verilməsini nəzərdə tutur. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu prioritetin reallaşdırılması ilə Azərbaycan qlobal iqlim dəyişikliklərinə məruz qalan planetimizdə ekoloji tarazlığın bərpa olunması işinə öz töhfələrini vermiş olacaq.

Açıqlamasının sonunda qarşıdakı 10 ili əhatə edən sosial-iqtisadi tərəqqiyə dair prioritetlərin uğurla gerçəkləşdirilməsinin milli birliyimizi də möhkəmləndirəcəyini qeyd edən AHİK sədri dedi:

– Prezident İlham Əliyevin həyata keçirdiyi bütün möhtəşəm layihə və proqramlar kimi, 2030-cu ilədək olan dövrdə sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər nəticə etibarilə Azərbaycan xalqının rifah səviyyəsinin yüksəldilməsinə və dövlətimizin iqtisadi-siyasi qüdrətinin artmasına hesablanmışdır. Milli maraqlar, yeni reallıq və müasir dövr milli iqtisadiyyatımız üçün yeni strateji vəzifələri diktə edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Beləliklə də, müharibə və pandemiya dövrünün ağır sınaqlarından çıxmış milli birliyimiz növbəti illərdə daha böyük uğurların qazanılmasını təmin edəcək.

***Hazırladı: Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 10 fevral.- S.4.